**Kazus**

Ərizəçilər "Homoseksuallığa son" plakatı ilə ictimai yerdə təbligat apardığı üçün həbs olunub cərimə cəzasına məhkum olunan cənab H.-in qızı və əmlakının idarəediciləridir. Cənab H. plakatı aşağı salmaqdan və qəzəbli kütlə oraya yığışandan sonra ərazini tərk etməkdən imtina etmişdir və bundan sonra kütlə üçün narahatçılıq yaranmışdır. 2002-ci ildə İnzibati Məhkəmədəki proses zamanı ərizəçi vəfat etmişdir, onun qızı və əmlakının idarəediciləri işini davam etdirməyə icazə aldılar. Məhkəmə qarşısında ərizəçilər 9 və 10-cu maddəyə əsasən şikayət etdilər ki, cənab H.-in cərimə cəzasına məhkum olunması onun vicdan və ifadə azadlığı hüququnu pozmuşdur. Ərizəçilər iddia etdilər ki, cənab H. təbliğat yolu ilə öz əqidəsini yaymaqdan məhrum edilmişdir və bu mesajın məzmununa görə və fikrini ifadə etdiyinə görə cərimələnmişdir, baxmayaraq ki, o hər hansı təhqiredici və ya insan ləyaqətini alçaldan dildən istifadə etməmişdir və zoralığa təhrik etməmişdir.
Cənab H. 2002-ci ildə vəfat etmişdir, lakin Avropa məhkəməsinə ərizə o vəfat edəndən sonra onun qızı və əmlakının idarəediciləri tərəfindən təqdim olunmuşdur. Bu zaman ərizəçilər o fakta əsaslanmışdılar ki, yerli məhkəməonları prosesdə hüquq varisi kimi tanımışdır.

Sizcə, hazırki iş üzrə Avropa Məhkəməsinin mövqeyi necə olmalıdır?

*Hazırladı: Elnur Həsənov*

**Cavab:** Fairfield Birləşmiş Krallığa qarşı iş.
Məhkəmə işi qəbul edilməyən hesab etdi (rationepersonae) – şikayət vermək üçün ərizəçilərin prosessual hüquqi qabiliyyəti yoxdur.